**Ağaverdiyev A.H.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.8-14**
**UOT: 342.725**

# Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövründə Azərbaycan dilinin hüquqi statusu

**Xülasə:** İlk dəfə Səfəvilər dövründə dövlət dili statusu alan Azərbaycan dili sonrasında Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqil Azərbaycan Respublikasının da dövlət dili olmuşdur. Sovet hakimiyyəti illərində Azərbaycan dilini getdikcə sıxışdırıb çıxarma siyasəti aparılarkən Heydər Əliyevin istər ictimai, istər siyasi, istərsə də hüquqi fəaliyyətləri ana dilimizin qorunub saxlanmasını təmin etdi. Hələ xalqımızın "əsarət zəncirini qırma mübarizəsinə", milli dirçəlişə hazırlıq getdiyi dönəmdə görülən bu tədbirlər Ulu Öndərin uzaqgörənliyindən xəbər verirdi.

**Açar sözlər:** Azərbaycan dili; konstitusiya; islahatlar; dövlət dili; dil siyasəti; Heydər Əliyev; milli dilin qorunması.

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan dilinin hüquqi statusu.** Dövlət dili məsələsi yenicə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin diqqət mərkəzində olmuşdur. Bu sahədə ilk addım müvafiq hüquqi bazanın yaradılması oldu. 1918-ci il iyunun 27-də milli hökumətin qərarı ilə yeni və ən yeni dövrdə ilk dəfə olaraq Azərbaycan dilinə dövlət dili statusu verildi və dövlət orqanlarında kargüzarlığın bu dildə aparılmasına başlandı. Hökumətin bu qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etmişdir. Bu qərar ana dilinin dövlət dili kimi işlədilməsinə aid ilk rəsmi sənəddir. Qərara əsasən, ölkədə məhkəmə, inzibati idarəçilik və digər vəzifələrin başında duranlar dövlət dilini lazımi səviyyədə öyrənənədək, hökumət müəssisələrində rus dilinin də işlənməsinə yol verilirdi. Lakin bu real şəraitdən doğan müvəqqəti tədbir olmuş və yalnız idarəçilikdə milli kadrların yetişməsinə qədər olan müddət üçün nəzərdə tutulmuşdu. Belə ki, Xalq Cümhuriyyətinin "Dövlət lisanı türkcə qəbul edilərək müvəqqəti hökuməti müəssisələrdə rus lisanı istemalına müsaidə edilməsi haqqında" Nazirlər Şurasının qərarında deyilirdi: "Dövlət lisani-türk dili qəbul edilərək içəridə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da müsaidə edilsin".

Dövlət dilini Azərbaycan (türk) dili elan edən ilk rəsmi sənəd çox böyük tarixi rol oynamaqla yanaşı, Azərbaycanda milli dil siyasətinin formalaşmasının, millətin mənafeyinə uyğun düzgün ideoloji mövqeyin əsasını qoydu. Qeyd etmək lazımdır ki, Azərbaycan hökumətinin qərarı sadəcə deklarativ bir sənəd deyildi; qərarın qəbulundan irəli gələn məsələlər vaxtaşırı olaraq parlamentin iclaslarında müzakirə olunur, Azərbaycan (türk) dilini bilməyənlərin bu dili öyrənməsi üçün kurslar təşkil edilirdi. Bundan başqa, AXC hökuməti həmin məqsədlə dövlət büdcəsindən 351 min manat vəsait də ayırmışdı. Bu qərardan sonra Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər naziri

♦ **Ağaverdiyev Aydın Habil oğlu** – "Hüquqşünaslıq" ixtisası və "dövlət hüququ" ixtisaslaşması üzrə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi İdarəetmə Fakültəsinin magistrantı (Azərbaycan). E-mail: agaverdiyevaydin@gmail.com

Behbud xan Cavanşir "Azərbaycan" qəzetinə verdiyi müsahibədə dövlətin dil siyasətinin əsaslarını bu cür şərh etmişdi: "Azərbaycan müəssisələrində rus dilinin işlədilməsi hazırkı dövrün zərurətindən irəli gəlir. Əlbəttə, bu, çox davam etməyəcəkdir. Yüksək vəzifədə işləyən və türk dilini bilməyən məmurlar uzun müddət işləyə bilməyəcəklər. İki ildən sonra Azərbaycanın bütün müəssisələri milliləşdiriləcəkdir. Türk dilini bilməyən məmurlar isə vəzifələrini itirməməkdən ötrü bizim dili öyrənməli olacaqlar" [2].

Ana dilinin dövlət dili elan edilməsi ilə əlaqədar olaraq, təhsil müəssisələrinin milliləşdirilməsi qarşıda duran əsas məsələlərdən idi. 1918-ci il avqustun 28-də Azərbaycan dilində savadlı milli kadrların hazırlanması məqsədilə ölkədəki təhsil müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul olundu. Bu qərarda bütün ibtidai tədris müəssisələrində tədris ana dilində aparılması, eyni zamanda, dövlət dilinin icbari qaydada tədris olunması nəzərdə tutulmuşdur. Azərbaycan dilində fəaliyyət göstərən ali təhsil müəssisələrinin yaradılması və Azərbaycan əlifbasının islahatı üçün ilk addımların atılması da 1918-1920-ci illər müstəqillik dövrünün əsas nailiyyətlərindəndir [3, s. 28].

Azərbaycan Xalq Cümhuriyyətinin dillə bağlı ilk qərarı 21 iyun 1918-ci ildə "Azərbaycan Respublikası Nazirlər Şurasının bəyannaməsinin dərc olunması haqqında" qəbul etdiyi qərardır. Qərarda qeyd olunurdu ki, hökumətin deklarasiyasının (bəyannaməsinin) türk və rus dillərində dərci qərara alınsın. Əlbəttə, qərarın adından da göründüyü kimi, AXC hökumətinin bütün bəyannamələri türk və rus dillərində dərc olunmalı idi. Rus dilinin həmin dövr üçün işləkliyi məlum idi, ancaq həmin dövrdə türk dilində də deklarasiyaların (bəyannamələrin) dərc olunması cəmiyyətdə çox yüksək səviyyədə qiymətləndirilməklə AXC-nin Azərbaycan türk dilinə verdiyi dəyəri göstərirdi [6, s. 90].

1918-ci il dekabrın 27-də Azərbaycan Xalq Cümhuriyyəti hərbi naziri Səməd bəy Mehmandarovun əmri ilə Azərbaycan-türk dili orduda da dövlət dili kimi qəbul edilmiş, daha sonra Hökumət 1919-cu il fevralın 11-də Azərbaycan milli ordusunda türk dilində süvari qoşunları nizamnaməsinin təsdiqi haqqında qərar qəbul etmişdi.

O zaman Azərbaycan Parlamentinin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Digər millətlərin nümayəndələrinin rus dilində çıxış etmələri məqbul hesab edilmişdi. Qeyd edilməlidir ki, dövlətin bu ali orqanında yazılı dillə şifahi nitq arasında ciddi fərq olmuşdur. Bəzi istisnalar nəzərə alınmazsa, sənədlərin, təkliflərin dili ümumi, bəlkə də, məcburi bir prinsipə əsaslanmış, şifahi nitqdə isə, bir qayda olaraq, sərbəstliyə imkan verilmişdi [6, s. 51].

Azərbaycan Xalq Cümhuriyyəti düzgün dil siyasətini həyata keçirmək üçün təhsilin əsas və çox mühüm sahə olduğunu ön plana çəkdi. Cümhuriyyət hökuməti qısa zaman kəsiyində dil, tədris və təhsillə bağlı bir çox qərarlar qəbul etmişdi. Azərbaycanda XIX əsrin sonlarında M.F.Axundzadə ilə başlayan ərəb əlifbasının islah edilməsi, yeni əlifbanın (latın) qəbulu kimi məsələlər XX əsrin əvvəllərində də aktuallığını saxlamaqda idi. Ərəb əlifbasının islah edilməsi və latın əlifbasına keçid məsələləri cümhuriyyət dövründə də çox qızğın şəkildə müzakirə olunurdu.

**Azərbaycan SSR dövründə Azərbaycan dilinin hüquqi statusu.** Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra isə dövlət dili problemi yenidən ortaya çıxmışdır. 19 may 1921-ci il tarixində qəbul edilmiş Azərbaycan SSR-nin ilk Konstitusiyasında Azərbaycan dili barədə konkret norma nəzərdə tutulmamış, dövlət dili barədə heç bir qeyd aparılmamışdır. IV Ümumazərbaycan Sovetlər qurultayının 1925-ci ilin mart ayında "Yeni türk əlifbası haqqında" qərar qəbul etmiş və qərarda 1925/26-cı tədris ilində birinci sinifdən başlayaraq, səkkizinci sinfi bitirənə qədər bütün məktəblərdə təhsilin yeni türk əlifbası ilə aparılması nəzərdə tutulmuşdur.

Qeyd edilmişdir ki, Azərbaycanın mərkəzi dövlət idarələrində və mahallarda kargüzarlıq işinin aparılması üçün yeni əlifbanın öyrənilməsi üzrə hazırlıq işləri görülsün. Lakin bu mütərəqqi qərar uzun ömürlü olmadı və Azərbaycan SSR Ali Soveti tərəfindən 11 iyul 1939-cu il tarixində qəbul edilmiş "Azərbaycan yazısının latin əlifbasından rus əlifbasına keçirilməsi haqqında" Qanuna əsasən, 1940-cı il yanvarın 1-dən başlayaraq Azərbaycan yazısı latın əlifbasından rus əlifbasına keçirildi. Elə həmin vaxtdan da dövlət idarələrinin, ictimai təşkilatların kargüzarlıq işləri və dövri mətbuat da tədricən yeni əlifbaya keçirilməyə başlandı.

26 mart 1927-ci ildə qəbul edilmiş Konstitusiyanın 15-ci maddəsində Azərbaycan SSR vətəndaşlarının qurultaylarda, məhkəmədə, idarəçilikdə və ictimai həyatda ana dilində sərbəst şəkildə istifadə etmək hüququ təsbit edilmişdir. Həmin maddədə milli azlıqların məktəblərdə öz ana dillərində təhsil almaq hüququnun təmin edilməsi nəzərdə tutulmuşdur. Göründüyü kimi Konstitusiyada dövlət dilindən söhbət getmir və yalnız Azərbaycan dilindən müəyyən çərçivəyə alınmış istifadə hüququndan bəhs olunur.

1936-cı il dekabrın 5-də SSRİ-nin yeni konstitusiyası qəbul olundu. Bundan sonra bütün müttəfiq respublikalar da öz yeni konstitusiyalarını qəbul etdilər. Azərbaycan SSR konstitusiyasının layihəsində Azərbaycan SSR-də dövlət dilinin türk dili olduğu haqqında maddə olsa da (20-ci maddə), 1937-ci il martın 14-də IX Fövqəladə Ümumazərbaycan Sovetlər qurultayında konstitusiya təsdiq edilərkən, həmin maddə çıxarılmışdı. Eyni zamanda, qurultayın sənədlərində xalqın "türk" adı dəyişdirilərək "azərbaycanlı", dilinin "türk dili" adı dəyişdirilərək "Azərbaycan dili" adlandırıldı. 1937-ci il Konstitusiyasında yalnız 41-ci maddədə qanunların, habelə Azərbaycan SSR Baş Soveti Prezidentinin fərmanları və izahlarının, Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərar və binagüzarlıqlarının Azərbaycan, rus və erməni dillərində elan edilməsi barədə müddəa nəzərdə tutulmuşdur. Bununla bərabər, Konstitusiyanın 117-ci maddəsində ədalət mühakiməsinin aparıldığı dildən söhbət açılmış, Azərbaycan SSR-də və Naxçıvan ASSR-də məhkəmə iclasının Azərbaycan dilində və Dağlıq Qarabağ Muxtar Vilayətində erməni dilində, əhalisinin çoxu erməni və ya rus və ya talış olan rayonlarda isə, müvafiq olaraq, erməni və ya rus və ya talış dilində aparılması təsbit olunmuş, bu dilləri bilməyən şəxslər üçün isə materiallarla tərcüməçi vasitəsilə tanış olmaq və habelə məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilmişdir.

1950-ci illərdə elə bir vəziyyət yaranmışdı ki, Azərbaycan dili nəinki mərkəzi dövlət idarələrindən və ictimai təşkilatlardan tamamilə sıxışdırılıb çıxarılmışdı, hətta bəzi poçt şöbələrində Azərbaycan dilində teleqramlar qəbul edilmirdi, bəzi müəssisələrdə işçilərin Azərbaycan dilində yazdıqları ərizələr onlara qaytarılırdı.1956-cı ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri işləyən görkəmli yazıçı və dövlət xadimi Mirzə İbrahimovun təşəbbüsü ilə Azərbaycan rəhbərliyi konstitusiyaya dövlət dili haqqında maddə daxil etməklə ana dilinin hüquqlarını qismən bərpa etməyi qərara aldı. Həmin dövrdə Gürcüstan və Ermənistan istisna olmaqla (dövlət dili haqqında maddə həmin respublikaların ilk konstitusiyalarına daxil edilmişdi və 1937-ci il konstitusiyasında da saxlanılmışdı) SSRİ konstitusiyasında və müttəfiq respublikaların konstitusiyalarında, həmçinin, Avropa və Asiyanın sosialist ölkələrinin konstitusiyalarında dövlət dili haqqında maddə yox idi [7].

1956-cı il avqustun 21-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında Sov.İKP MK-ya məlumat verilmədən (məsələ yalnız şifahi tərzdə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri K.Y.Voroşilovla razılaşdırılmışdı) "Azərbaycan SSR Konstitusiyasına Azərbaycan SSR-in dövlət dili barəsində maddə əlavə edilməsi haqqında" Qanun qəbul olundu. Bununla da, bütün sosialist ölkələri birliyi sistemində konstitusiyalarında dövlət dili haqqında maddə olan Zaqafqaziya

respublikalarının əlahiddəliyi yarandı. Yeni əlavə ediləcək 151-ci maddə aşağıdakı kimi formulə edilmişdir:

"Maddə 151. Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir. Azərbaycan SSR ərazisində yaşayıb azlıq təşkil edən millətlərə həm öz mədəniyyət idarələrində, həm də dövlət idarələrində ana dilini sərbəst inkişaf etdirmək və işlətmək hüququ təmin edilir".

Lakin uzun müddət keçməsinə baxmayaraq, Azərbaycan SSR-nin 1937-ci il Konstitusiyasına belə bir maddə əlavə olunmadı və onun müddəaları faktiki olaraq icra edilməmiş qaldı. Beləliklə, Heydər Əliyevin Azərbaycana rəhbərliyə başladığı dövrdə ana dilinin konstitusion-hüquqi status kimi, xalqımız üçün həyat iəhəmiyyət daşıyan bir problem qalmaqda idi.

**Heydər Əliyevin Respublikaya 1-ci rəhbərliyi dövründə Azərbaycan dilinin konstitusion-hüquqi statusu.** Heç şübhəsiz ki, hər bir xalqın ana dili onun varlığının ən başlıca göstəricisi, özünütəsdiqidir və millətin özünəməxsusluğunu, tarixi keçmişi və mədəniyyətini, dünyagörüşünü özündə daşıyan, əsrlərdən-əsrlərə çatdıran əvəzsiz milli sərvətdir. Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycan Respublikasına rəhbərlik etməyə başladığı ilk vaxtlardan ana dilinə böyük qayğı və diqqət göstərib. Onun həyata keçirdiyi məqsədyönlü dil siyasətinin nəticəsi olaraq keçən əsrin 70-ci illərində respublikamızda ana dilinin müxtəlif istiqamətlərdən araşdırılması ilə bağlı bir sıra dəyərli elmi tədqiqat işləri yerinə yetirildi. 1974-cü ildə ali məktəblər üçün hazırlanmış dördcildlik "Müasir Azərbaycan dili" dərsliyi Dövlət mükafatına layiq görüldü [4]. Heydər Əliyevin ana dilinə sonsuz sevgi və qayğısının təzahürü olan bu cəsarətli addımı o zaman da ölkəmizdə rəğbətlə qarşılanmışdı. Dövlət dili uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider ziyalıları, xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvələri səfərbər etmişdir.

1969-cu ildə Bakı Dövlət Universitetinin 50 illik yubileyində mühüm siyasi və milli əhəmiyyət kəsb edən diqqətəlayiq bir hadisə baş verdi. Ulu Öndər çıxışını doğma Azərbaycan dilində etdi. Heydər Əliyev o dövrdə bütün SSRİ miqyasında, bütün rəsmi yığıncaqlarda dövlət və partiya rəhbərlərinin ancaq rus dilində çıxış etməsi ənənəsini pozaraq öz ana dilində danışdı:

"Burada təəccüblü bir şey yoxdur. Bu mənim ana dilimdir və ana dilində çıxış etmək böyük qəhrəmanlıq deyil. Ana dilini bilməmək, onu qiymətləndirməmək, şübhəsiz, xalqın qarşısında qəbahətdir."

Heydər Əliyevin bu çıxışı Azərbaycanın milli mənəvi sərvətlərinin qorunması, Azərbaycan dilinin, Azərbaycan tarixinin, Azərbaycan ədəbiyyat və incəsənətinin, bütövlükdə, Azərbaycan milli mədəniyyətinin inkişafının yeni bir mərhələsinin başlanğıcı oldu.

1977-ci il oktyabrın 7-də SSRİ-nin yeni konstitusiyası qəbul edildi və sovet dövlətçilik ənənəsinə görə, müttəfiq respublikalar da öz yeni konstitusiyalarını qəbul etməli idi. Azərbaycan SSR konstitusiyasının mətbuatda dərc olunmuş layihəsində dövlət dili haqqında maddə yox idi. Müttəfiq respublikaların konstitusiyalarının modeli Moskvadan verilmişdi və Mərkəz dövlət dili məsələsində bütün sosialist ölkələri birliyi daxilində Zaqafqaziya əlahiddəliyinə son qoymağı qərara almışdı.Rus dilinin hüquqlarının genişləndirilməsi ilə əlaqədar "vahid dil" siyasəti daha geniş şəkildə təbliğ olunurdu. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdən çəkinirdilər. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdir. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinə konstitusiya səviyyəsində dövlət dili statusu verilməsi məqsədi

daşıyırdı. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir".

Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu Öndər bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorumuşdur. Ulu öndər uzaqgörənliklə qeyd edirdi ki, "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir" [5].

Azərbaycan SSR konstitusiyasına dövlət dili haqqında maddənin yenidən daxil edilməsi mərkəzi dövlət idarələrində və ictimai təşkilatlarda onun işlədilməsini təmin etmədi və 1956-58-ci illərin təcrübəsi göstərir ki, Azərbaycanın həmin dövrdəki reallığı şəraitində bu, obyektiv olaraq qeyri- mümkün idi. Lakin Azərbaycan dilinin dövlət dili kimi konstitusiyada təsbit olunmuş hüququ əsasında onun funksional dairəsinin genişləndirilməsi üçün müvafiq tədbirlər görülmüşdü.

"Azərbaycan SSR-in tarixində dövlət dili ilə əlaqədar sonuncu sənəd "Azərbaycan SSR-də Azərbaycan dilinin dövlət dili kimi daha fəal işlədilməsini təmin etmək tədbirləri haqqında" Azərbaycan KP MK-nın 18 avqust 1989-cu il tarixli qərarıdır. Lakin Azərbaycanın o dövrdəki ictimai-siyasi həyatında gərginliklər yarandığı və dağıdıcı proseslər başlandığına görə həmin qərarın icrası qeyri-mümkün idi. 1990-cı il aprelin 24-də qəbul edilmiş "SSRİ xalqlarının dilləri haqqında" SSRİ qanunu da elə bu səbəbdən əhəmiyyətsiz idi" [7].

Bütün bu çətinliklərə baxmayaraq, Heydər Əliyevin Sovet hakimiyyəti illərində həyata keçirməyə çalışdığı dil siyasəti xalqımızın sonrakı taleyində, azadlıq hərəkatının gedişində, xalqın milli kimliyini qorumasında heç də az rol oynamamışdır.

Bu mübarizənin, fəaliyyətin məntiqi nəticəsi olaraq, 1995-ci il Azərbaycan Respublikasının Konstitusiyasının 21-ci maddəsinə əsasən, "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir" [1].

Dilimizin inkişafı, qorunması, fəaliyyət dairəsinin genişlənməsi kimi tarixi missiyanın yerinə yetirilməsində Heydər Əliyevin müstəsna rolunu hamı etiraf edir. XX əsrin II yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı, ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın hegemon dövlətlərinin və ən yüksək beynəlxalq cəmiyyətlərin və təşkilatların kürsülərində səslənməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Bu iş Ümummilli liderin həyat amalında, fəaliyyətində xüsusi yer tutur. Azərbaycan dilinin keşiyində durmaq H. Əliyevin məqsədyönlü fəaliyyətinə çevrilmişdir. Elə bu fəaliyyət özü də XX əsrin sonlarında xalqımızın "milli azadlıq hərəkatının" uğurunu təmin edən əsas amillərdən biridir.

**Biblioqrafiya**


1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Qanun, 2016. - 48 s.
2. Ağamalıyeva N. İlk Azərbaycan parlamenti. /"Azərbaycan" qəzeti, 1991, № 5. S. 9-13.
3. Dəmirçizadə Ə.M.. Klassiklərimiz dil və yazı haqqında. - Bakı, 1992.
4. Əliyev V.H.. Heydər Əliyevin dil siyasəti. – Bakı: Nurlan, 2003. - 38 s.

5. Qurbanov S.H. Heydər Əliyev və dil mədəniyyətimiz. / "Azərbaycan" qəzeti, 2022-ci 21 aprel.- S.7.
6. İbrahimov E.Ə. Azərbaycan Xalq Cümhuriyyəti: dil məsələləri. – Bakı: XAN nəşriyyatı, 2018. - 208 s.
7. İbrahimov E.Ə. Azərbaycanda dil siyasəti. / "525-ci qəzet", 31 iyul 2020-ci il

**Agaverdiyev A.H.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.8-14**
**UDC: 342.725**

## The legal status of the Azerbaijani language during the Azerbaijan Democratic Republic and the Azerbaijan SSR

**Abstract:** Azerbaijani language, which first received the status of the state language during the Safavid period, became the state language of the Azerbaijan Democratic Republic, the Azerbaijan SSR, and the independent Azerbaijan Republic. During the years of Soviet rule, when the policy of gradually suppressing the Azerbaijani language was carried out, Heydar Aliyev's social, political, and legal activities ensured the preservation of our mother tongue. These measures taken at a time when our people were still preparing for the "struggle to break the chain of slavery" and national revival showed the foresight of the Great Leader.

**Keywords:** Azerbaijani language; constitution; reforms; state language; language policy; Heydar Aliyev; protection of the national language.

### References

1. Constitution of the Republic of Azerbaijan. Baku, Qanun Publ., 2016, 48 p. (in Azerbaijani).
2. Agamaliyeva N. The first Azerbaijani Parlaiment. / Azerbaijan newspaper, 1991, No. 5. P. 9-13 (in Azerbaijani).
3. Demirchizade A.M. Our classics about language and writing. Baku, 1992 (in Azerbaijani).
4. Aliyev V.H. Language policy of Heydar Aliyev. Baku, Nurlan Publ., 2003, 38 p. (in Azerbaijani).
5. Gurbanov S.H. Heydar Aliyev and our language culture. / Azerbaijan newspaper, 2022, 21 April, p. 7 (in Azerbaijani).
6. Ibrahimov E.A. Azerbaijan Democratic Republic: language issues. Baku, KHAN Publ., 2018, 208 p. (in Azerbaijani).
7. Ibrahimov E.A. Language policy in Azerbaijan / 525 newspaper, 31.08.2020 (in Azerbaijani).

---

♦ **Agaverdiyev Aydın Habil oglu** – Master's student in "Jurisprudence" and specializing in "Public Law" of the Faculty of Political Management at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan. E-mail: agaverdiyevaydin@gmail.com

**Агавердиев А.Х.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.8-14**
**UDC: 342.725**

## Правовой статус азербайджанского языка в период Азербайджанской Демократической Республики и Азербайджанской ССР

**Аннотация:** Азербайджанский язык, впервые получивший статус государственного в эпоху Сефевидов, стал государственным языком Азербайджанской Демократической Республики, Азербайджанской ССР и независимой Азербайджанской Республики. В годы советской власти, когда проводилась политика постепенного подавления азербайджанского языка, общественно-политическая и правовая деятельность Гейдара Алиева обеспечила сохранение нашего родного языка. Эти меры, принятые в то время, когда наш народ еще готовился к «борьбе за разрыв цепей рабства» и национальному возрождению, показали дальновидность Общенациональный Лидер.

**Ключевые слова:** Азербайджанский язык; конституция; реформы; государственный язык; языковая политика; Гейдар Алиев; защита национального языка.

### Библиография

1. Конституция Азербайджанской Республики. – Баку: Ганун, 2016. – 48 с. (на азерб. яз.).
2. Агамалыева Н. Первый азербайджанский парламент / газета Азербайджан, 1991 г., №5, с. 9-13 (на азерб. яз.).
3. Демирчизаде А.М. Наши классики о языке и письменности. – Баку, 1992 (на азерб. яз.).
4. Алиев В.Г. Гейдар Алиев и языковая политика. – Баку: Нурлан, 2003. – 38 с. (на азерб. яз.).
5. Гурбанов С.Г. Гейдар Алиев и культура языка / газета Азербайджан, 2022 г., 21 апреля, с. 7 (на азерб. яз.).
6. Ибрагимов Э.А. Азербайджанская народная республики: вопросы языка. – Баку: изд-во ХАН, 2018. – 208 с. (на азерб. яз.).
7. Ибрагимов Э.А. Языковая политика в Азербайджане / газета 525. 31 июля 2020 г. (на азерб. яз.).

♦ **Агавердиев Айдын Хабиль оглы** – магистрант по специальности “Юриспруденция” и специализации “Государственное право” факультета Политического управления, Академия Государственного Управления при Президенте Азербайджанской (Азербайджан). E-mail: agaverdiyevaydin@gmail.com